# TANAP region ölkələri iqtisadiyyatının güclənməsində mühüm rol oynayacaq



❒ ***Trans-Anadolu təbii qaz boru kəməri (TANAP) Türkiyə-Azərbaycan birgə siyasi iradəsinin nəticəsidir və eyni zamanda, bu layihə digər ölkələrin iştirakı və özəl şirkətlərin maliyyə dəstəyi ilə reallaşdırılır. Bu fikirləri enerji iqtisadiyyatı üzrə ekspert, Türkiyənin Boğaziçi Universiteti Enerji Politikaları Araşdırma Mərkəzinin prezidenti, professor Gürkan Kumbaroğlu söyləyib.***

O bildirib ki, bu layihə funksional baxımdan çoxşaxəli missiya daşıyır. TANAP heç bir kəmərə alternativ deyil, bu xəttin ideyası və gerçəkləşməsi tamamilə yenidir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışında bildirdi ki, layihənin əsas texniki və maliyyə yükünü Azərbaycan və Türkiyə öz üzərinə götürmüşdür.

Professor deyib ki, "TANAP xətti ilə illik nəql olunacaq 16 milyard kubmetr qazın təxminən üçdə bir hissəsi Türkiyədə istifadə olunacaq. Bu həcmdə qaz əldə etmək Türkiyənin iqtisadiyyatında və sosial həyatında mühüm amildir. Bu da istər-istəməz Avropa-Türkiyə münasibətlərinin inkişafına yeni bir yanaşma gətirəcək. Bundan başqa, TANAP Avropanın cənub-şərq bölgəsində yerləşən ölkələrin də iqtisadi inkişafına əhəmiyyətli dərəcədə təkan verəcək".

G. Kumbaroğlu qeyd edib ki, Türkiyədə kəsişən Trans-Anadolu və "Trans-Adriatik" xətləri Avrasiyada bu vaxtadək görünməyən iqtisadi inteqrasiya yaradacaq. Bu layihə çərçivəsində hasil olunacaq təbii qaz Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya ərazilərindən və Adriatik dənizinin dibindən keçməklə İtaliyaya qədər 3500 kilometrdən artıq uzanan boru kəməri vasitəsilə çatdırılacaq.

***Hazırladı: Anar TURAN,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2019.- 4 dekabr. S. 6.